*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin* **ELMİ ƏSƏRLƏRİ № 27, 2019**
**УЧЁНЫЕ ЗАПИСКИ*Азербайджанского Государственного Университета Культуры и Искусств* № 27, 2019**
**SCIENTIFIC NEWS *of Azerbaijan State University of Art and Culture* № 27, 2019**

**UOT 008:001.8**

**Günel İbrahimova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**AZ 1065, Bakı, İnşaatçılar pr. 39**
**E-mail**:gunel_elili@mail.ru

# AZƏRBAYCAN FOLKLORUNUN ADƏT-ƏNƏNƏSİNDƏ SEMİOTİKA

**Xülasə**: İndiki zaman da belə mərasimlərdə etdiyimiz adətlərin fərqinə belə varmadan edirik. Ancaq araşdıranda bütün adətlərin öz semiotik mənaları olduğunu anlayırıq. Kodlarını açdıq da onların anlamları başa düşülən olur. Folklor da olan nümunələrin hər biri dərindən öyrənilib mənaları aydınlaşdırılmalıdı. Toylarda olan adətlər zamanla dəyişdirilsə də məna etibarilə qalmaqdadı. Bununla yanaşı bütün mərasimlərdə adət-ənənələr öz mənalarını saxlamaqdadı.

**Açar sözlər:** folklor, mərasimlər, semiotika, mədəniyyət, adət-ənənə, toylar, şifahi xalq ədəbiyyatı.

Bir xalqın poetik yaradıcılığı, onun formalaşmasında olan tarixi nümunəsi folklor adlanır. Folklorun tarixi yaranması ilk insanın mövcudiyyətinə gedib çıxır. Folklorun olması vacib bir nüansdı məişətində, coğrafi mühitində, iqlimindən, baş verən təbii hadisələrdən, zamanla olan dini inanclardan folklor nümunələrin var olması şərtdi. Şifahi söz sənəti olan folklor böyük və kiçikliyindən, yaranması və məhv olmasından asılı olmayaraq xalq kütləsi tərəfindən yaradılan və yaşadılandır. Qədim dövrlərdən insanlar müharibə edərkən, mövsüm tədarükü edərkən, təbiətin maddi nemətlərindən istifadə etməyə çalışarkən bəddi söz sənətini yaratmışlar. Folklorşünaslıq elminin təməlini qoyan alimlər öz araşdırmalarından belə nəticəyə gəliblər ki, folklor nümunələri əmək prossesi nəticəsində meydana gəlmişdir.

Folklor nümunələri çox qədim zamandan yaranıb ağızdan-ağıza, nəsildən-nəsilə keçərək çilalanıb dövrümüzə qədər gəlib çıxmışdır. Bəzi nüanslar adət-ənənələr deformasiyaya uğrasa belə öz kökünu mahiyyətini qoruyub saxlayıb. Xalqın arzu, istəklərini, ümidlərini, sevincini, kədərini, gileyini, sevgisinə olan məhəbbətini folklor nümunələri ilə bildirilirdi.

Azərbaycan alimi Əhməd Cəfəroğlu folkloru hər bir millətin varlığı kimi dəyərləndirirdi: “Folkloru qısaca tərif etmək lazım gələrsə, hər millətin tam özü olduğunu qətiyyətlə söyləyə bilərik. Çünki folklorsuz bir millət təsəvvür etmək imkanı yoxdur. Əsrlər boyunca bir millətin həyatilə bərabər inkişaf edən və ağızdan-ağıza nəql vasitəsilə bizə qədər gəlib çatan bu ədəbiyyat növü daima onu yaradan millətin səviyyəsi, dərəcəsi və mənəvi həyatına bağlı qalmışdır. Xüsusən, türklər kimi fövqəladə geniş bir coğrafi

sahəyə yayılan millətlərdə folklor fövqəladə zəngin və millətin əsl özünü və keçmişini tanıdacaq bir çox ünsürləri bəsləməkdədir" (2, səh 523)

Şifahi xalq ədəbiyyatı hər bir xalqın tarixinin, ədəbiyyatının ayrılmaz qolu kimidir. Uzun zamanlar ayrıca elm kimi deyil ədəbiyyatın daxilində öyrənilən bir elmdir. Zaman keçdikcə bir elm sahəsi kimi araşdırılır. Hər xalqın öz keçmişini, folkorunu, adət-ənənəsini bilmədən gələcəyini təsəvvür belə etmək mümkün deyil.

Əşya, predmet və hadisəninnövü, onlar arasında olan əlaqəni birləşdirən və fərqlərini ifadə edən. Dünya da anlamın izahı, ona münasibət və onun birmənalı şəkildə dərk olunması düşündürən vacib amil arasında fəqlərin birmənalı və ya çox olduğunu göstərir. Semiotikada qısa olaraq düsturunu versək bildirmə, göstərmə, işarələyən, işarələnən. Bunların hər birinin mənalarını açdıqda semiotik mənaların açıldığını görərik. Semiotika elminin işarələrini özündən başqa, işarələr sisteminin müxtəlif tərəflərini öyrənməyə yönəlmiş çoxlu anlayışları, nəzəri prinsipləri var. Onlardan aşağdakıları saymaq olar: "dil sistemi" və ya "kod", "paradiqmatika", "tekst", "tekst də informatik olanlar" [9, səh 77]. Burdan aydın olduğu kimi tekstlərdə verilən sözlərin hər birinin bir məna kəsb etdiyini və bildirilənin bilinəndən fərqli olduğunu anlayırıq.Hər hansı bir işarənin tapılması semiotikanın xidmətində deyil. Çünki hər bir işarənin min bir mənası ola bilər bununla yanaşıda hər bir mənanın öz sinonimi ola bilər. Semiotik mənaların əsasən dilçilikdə ünsiyyət vasitələrində var olduğunu əsasən orada elm kimi inkişaf etdiyini bilirik.Zamanla sivilizasiyalar olduqca semiotika işarələr sistemi daha başqa sahələrə yayılmışdı.Mədəniyyət sahələrinə belə yayılmışdır.Misal olaraq xalçalarda illərlə olan işləmələrin, naxışların hər birinin bir mənası var. Bunların açılması üçün semiotikanın vacib rolu olmuşdur.

Yaranmış adətlər ilk öncə olduğu coğrafi məkana orada olan iqlimə, təfəkkürə görə formalaşır. Yeniliyin var olmasında inkişaf etməsində əvvəldə olan hər hansı mərasimlər təməl rolunu oynayır, oradakı mütərəqqi keyfiyyətləri, müasirliyə yaxın olan düşüncələri mənimsənilir. Hər bir adətin öz kodu mənası var, heç bir adət - ənənə korkoranə yaradılıb indiki zamana qədər gəlib çatmır. Müasir zaman da yenilik edilsə də kökü mənası olduğu kimi qalır.

Bu gündə məişətimizdə müasirliyi özündə birləşdirsə də doğum adətləri, uşağın salamatlığı, saxlanılması yolunda olan mərasimlər əslində folklordan olan qanunauyğunluğun məhsuludur. Bildiyimiz kimi təkcə məişətimizdə deyil eyni zamanda ədəbiyyatımız, filmlərimiz, bəzən mədəniyyət incilərimiz də övlad törətmək, nəsil artırmaq adamları düşündürən vacib məsələlərdən olmuşdur. Ta qədim çağlardan insanlar bu ritualları adətlərlə edirdilər, müasir zamanda tibbin inkişaf etməsinə müasirliyin, sivilizasiyaların olmasına baxmayaraq hələ də bu mərasimlər yerinə yetirilir. Qısa olaraq qeyd etmək lazımdır ki, toy mərasimdə olan toy adətlərin təməli burdan qoyulur. İndi isə bu mərasimdə olan ənənələrin semiotikasını araşdıraq.

Toyu olan gəlin bəyin ilk gün üçün salınmış yatağa əvvəlcə uşaq uzadılarmış və bununla həmin gəlinin övlad olması üçün arzular deyib dua edilərmiş. Haşiyəyə çıxaraq qeyd etmək istəyərdim ki, folklor adətlərində olan bu adət bütün zamanlarda var olmuşdu, sadəcə fərq olaraq islam dinindən əvvəl yalnız oğlan övladı uzadılarmış, islam dinindən sonra isə qadının, qızın hökmü ilə ayələr deyildikdən sonra fərq qoyulmadan mərasim həyata keçirilirdi. Bu adətin kodun açarını araşdırdıq da anlamaq olar ki, toyu olan gəlin və bəyin həmin gündən bu yataqda birləşməsi sona kimi birgə olması üçündü və övlad

olmasa həmin ailənin sonun xeyirli olması düşündürəndi. Övladın ora qoyulub dua edilməsi həmin ailə üçün xeyir dua verilməsi bu mənaya gəlir.
Uşağı olmayan qadın yuxuda yumurta görərsə uşağı olar. Bunun mənasını anlamaq mümkündür, yumurta törəmə artım mənasıdır. Müsbət halları olduğu kimi övladı olmayan ananın kənardan xoş qarşılamayan sözlərdə olurdu. Övladı olanlar ilk öncə özləri həmin qadının üstünə gəlirlər bunun mənasını açdıqda məna olaraq o qənaətə gəlmək olur ki, övladı olanın ağırlığı olsun həmin qadının üstünə, çünki övladı olmayanın bədbin, ruhunun qara, nəfsinin iti olmasına görə öz ağırlığını körpənin üzərinə tökə bilər. Körpələr anadan olan zamandan qoruyub nəvaziş etmək lazımdı, ancaq ilk bir yaşa qədər daha çox adətlər, mərasimlər keçirilir.

Ümumel sevinci olan toy hər bir xalqın özünə məxsus spesifik xüsusiyyətlərini üzə çıxarır. Xalqların, etsonların milli adət-ənənəsini, etik-etnoqrafik mədəniyyətlərini, məişətinin hər bir etnosunun adətlərini öyrənir. Toy bütün mərasimlərdə olduğu kimi mərhələlərlə həyata keçirilir. İki gəncin birləşməsi əsnasında olan bu akt birdən bira sevib və alıb apardı ilə olmur. Toydan əvvəl dövr, gənclərin vüsala çatdığı toy, və nəhayət toydan sonra.

Toydan əvvəlki mərhələdən bəhs etməmişdən əvvəl qısaca qeyd edim ki, əsasən də gənc qızlar ərə getmək üçün bir sıra ayinlər, fallar edirlər. Yeni il axşamı süfrə arxasında əyləşən qohumların içində subay qız olarsa o heç zaman süfrənin küncün də əyləşməz. Bunun kodunu açdıqda anlayarıq ki, dualist olaraq guya həmin zaman bayram olanda bu evdə olmuş və olmamış ruhlar qonaq gələrlər və süfrənin kənarında əyləşərlər. Bu zaman orada gənc subay qız əyləşibsə onların ora keçməsinə mane olur və ruhlar. Cinlər həmin qıza qarğış edin lənətləyərlər və həmin qız yeddi il ərə gedə bilməz. Bu adət müasir dövrə sivilizasiyanın inkişaf etməsinə baxmayaraq hələdə subay qızlar arasında ayin yerinə yetirilir.

Hər zamana oğul bacısı ön planda olub həm bunun adı baldız olduğu üçün həmdə oğul bacısı olub qardaşının xoş gününü görmək üçün. folklorda gənclərin əsasən bir-birini görməyə, bəyənməyə, qız görmə, qız bəyənmə şərtləri olmuşdu və bunun vasitəçisi çox zaman bacılar olur. Və evlənəcək oğlanın bacısı nəğmələr söyləyər.

Çaylar daşır, lil gəlir;
Dəstə-dəstə gül gəlir;
Güllərin birini üzəydim,
Saçlarıma düzəydim,
Qardaşımın toyunda
Oturub-durub süzəydim( 7, səh 50)

Gənclər bir-birini görüb sevdikdən sonra onların həyatlarının ən qərarlı, sevincli olmaqla yanaşı ən məsuliyyətli zamanları başlayır. İlk öncə oğlan adamların biri elçı getməmişdən əvvəl qız evinə gedər razılıq alar elçi gəlmək üçün. Qız evinə gedib gələn adamdan ilk olaraq soruşular oğlansan, yoxsa qız bunun mənası isə hə və yox ifadə edir. Oğlansan o deməkdi ki, qız evi razılıq verdi, qızsan deyərsə onda razı deyil mənasını verir. Buradan bir daha aydın olur ki, oğulun olması belə müsbət haldı və qızdan üstündür.

Toyda olan adətləri saymaqla bitmir bu xalqın rəngarəngliyinə və ən əsasən multikulturial olmasının bir əlamətidir. Hər bir etnosun öz dininə inancına uyğun olaraq adətləri formalaşır və bununla məişətində olanlar tariximizə həkk olunur.

## Ədəbiyyat:

1. Azərbaycan folklorşünaslığı mədəni irsin vasislik mexanizmin tətqiqatları. Bakı: 2006
2. Aşıqlar. Tərtib edən: H.Əlizadə, Bakı: Azərnəşr, 1937,
3. Aybəniz Əliyeva Kəngərli. Azərbaycan folklor kitabı.Bakı: 2008
4. Azərbaycan folklor antologiyası. 2 kitab. 1-ci kitab. Bakı:Azərbaycan EA nəşriyyatı , 1968
5. Folklorşünaslıq // Elmi nəzəri jurnal. B., 2015
6. Bəhlul Abdulla. Azərbaycan Mərasim Folkloru. Bakı: 2005
7. Niyazi Mehdi. Orta əsrlər Azərbaycan estetik mədəniyyəti. Bakı: 1986
8. Veysəlli F. Semiotika. Bakı:2010

**Гюнель Ибрагимова**

**Семиотика традиций и обычаев в азербайджанском фольклоре**

**Резюме**

Данная статья посвящена народным обычаям и традициям, которые до сих пор имеют место в нашей повседневной жизни. Автор исследует семиотику народных традиций и обычаев Азербайджана. В статье делается вывод, что все народные обычаи и традиции, в том числе и свадебные, берущие истоки из фольклора и по сей день несут символические значения.

**Ключевые слова**: фольклор, церемонии, семиотика, культура, обычаи, свадьбы, устная народная литерат ура.

**Gunel Ibrahimova**

**Semiotics of traditions and customs in Azerbaijani folklore**

**Summary**

This article is devoted to folk customs and traditions that still take place in our daily lives. The author explores the semiotics of folk traditions and customs of Azerbaijan. The article concludes that all folk customs and traditions, including wedding, originating from folklore and to this day bear symbolic meanings.

**Keywords**: folklore, ceremonies, semiotics, culture,customs, weddings, oral folk literature.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 05.03.2019**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 14.03.2019**
**Məqalənin çapa qəbul olunma tarixi: 26.04.2019**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: fəlsəfə üzrə elmlər doktoru, professor Niyazi Mehdi**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2019-cu il, 09 saylı qərarı ilə çap olunur.**